# Salyanda Nəbi İbrahimli-80 tədbiri





24 yanvar 2025-ci il tarixdə Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının iclas zalında Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri, yazıçı-publisist Nəbi İbrahimlinin 80 illiyi ilə əlaqədar yubiley tədbiri keçirilmişdir. Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin yaradıcılıq məsələləri üzrə katibi İlqar Fəhmi, Yazıçılar Birliyinin Bədii Tərcümə Mərkəzinin rəhbəri, Əsəd Cahangir, Yazıçılar Birliyinin baş müşaviri Rauf Aslanov və şair-publisist Damət Salmanoğlu iştirak etmişlər. Tədbirin aparıcısı Rayon Ziyalılar Birliyinin sədri Allahverdi Piriyev yubilyarın bioqrafiyası barədə tədbir iştirakçılarına məlumat vermişdir. Sonra N.İbrahimlinin maraqlı ömür yolu haqqında videoçarx nümayiş etdirilmişdir.

Salyan şəhər 2 saylı orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi, Azərbaycan Milli Elmlər Akademiyası Dilçilik İnstitutunun dissertantı Günel Orucova, Salyan rayon İcra Hakimiyyəti başçısının müavini Rəşad Cəbrayılov, Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının sədri Elmar Əhmədov, şair-publisist Zabil Pərviz, "Qələbə" rayon qəzetinin baş redaktoru Rüstəm Məlikov, Neftçala rayonundan tarixçi-tədqiqatçı Firdovsi Tağıyev, rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatının sədri Vilayət Əsgərov, təqaüddə olan mədəniyyət işçisi Lətif Zərbəliyev və başqaları çıxışlarında N. İbrahimlinin müsbət şəxsi keyfiyyətlərindən və yüksək təşkilatçılıq fəaliyyətindən söz açmışlar.

Sonra Azərbaycan Yazıçılar Birliyinin katibi İ.Fəhmi və Yazıçılar Birliyinin Bədii Tərcümə Mərkəzinin rəhbəri Əsəd Cahangir çıxış etmişlər. Yubilyara 80 illiyi ilə əlaqədar Azərbaycan Yazıçılar Birliyinin Diplomu təqdim olunmuşdur. Rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə yubilyara, həm də Salyan rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası rayon təşkilatının Fəxri fərmanları təqdim olunmuşdur.

Tədbirin sonunda N.İbrahimli yubiley tədbirinin təşkilatçılarına - Rayon İcra Hakimiyyətinə, Yeni Azərbaycan Partiyası rayon təşkilatının və Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə dərin təşəkkürünü bildirmişdir.